*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 134-142* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.134*

## *Nobel mükafatı laureatları*

# Ədəbiyyat üzrə Nobel mükafatçıları: dünya bədii yaddaş olimpinin ədəbi və əbədi ulduzları

**Arzu Məmmədxanlı**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: arzu2572@rambler.ru

**Annotasiya.** Nobel mükafatı dünyaca məşhur kimyaçı, mühəndis və ixtiraçı Alfred Bernard Nobelin vəsiyyəti əsasında 27 noyabr 1895-ci ildə təsis edilmişdir. Onun vəsiyyətinə görə, Nobel fondunun illik faizi hesabına toplanan vəsait əsasən beş sahə üzrə (kimya, fizika, tibb və fiziologiya, ədəbiyyat, sülh) böyük nailiyyətlər əldə etmiş şəxslərə, müəlliflər qrupu və ya təşkilatlara verilməli idi. Ölümündən sonra İsveç Bankının təşəbbüsü ilə 1968-ci ildə iqtisadiyyat üzrə ayrıca mükafat təsis edilmişdir. "A.Nobelin xatirə mükafatı" adlandırılan iqtisadiyyat üzrə mükafat Nobel Fondunun vəsaiti hesabına ödənilməsə də, onun məbləği və statusu digər mükafatlardan fərqlənmir.
Nobel Fondunun Nizamnaməsinə əsasən, kimya və fizika üzrə mükafatlar İsveç Kral Elmlər Akademiyası, tibb və fiziologiya üzrə Stokholm Karolina Tibb-Cərrahiyyə İnstitutu, ədəbiyyat üzrə İsveç Akademiyası, sülhün qorunması üzrə Norveç parlamentinin xüsusi komitəsi tərəfindən verilir.
Ədəbiyyat üzrə laureatın seçilməsində həlledici söz sahibi olan İsveç Akademiyası 1786-cı ildə III Qustav tərəfindən təsis edilmişdir. "İstedad və zövq" devizi altında fəaliyyət göstərən Akademiya yarandığı gündən ədəbiyyat və dil yönümlü tədqiqatlar üzrə ixtisaslaşdığından çox zaman qeyri-rəsmi şəkildə İsveç Ədəbiyyat Akademiyası da adlandırılır. 1901-ci ildən Alfred Nobelin vəsiyyətinə və Nobel Fondunun nizamnaməsinə əsasən, ədəbiyyat üzrə laureatların siyahısının müəyyən edilməsi bu qurum tərəfindən həyata keçirilir.
Elm sahəsində dövlət siyasətinin həyata keçirilməsində xüsusi mövqeyi olan AMEA-da Nobel mükafatçıları ilə müxtəlif görüşlər keçirilmiş, tədbirlər təşkil edilmişdir. Məqalədə Akademiyanın Nobel mükafatı mövzusundakı fəaliyyəti geniş şəkildə işıqlandırılmışdır.
**Açar sözlər:** Nobel, ədəbiyyat, laureatlar, müsəlman qaliblər, Nobel nitqi, AMEA-nın fəaliyyəti

**Məqalə tarixçəsi:** göndərilib – 04.12.2024; qəbul edilib – 16.12.2024

# Nobel laureates in literature: eternal and literary stars of the world artistic memory Olympic

**Arzu Mammadkhanli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: arzu2572@rambler.ru

**Abstract.** The Nobel Prize was established on November 27, 1895, by the will of the world-famous chemist, engineer and inventor Alfred Bernard Nobel. According to his will, the funds collected from the annual interest of the Nobel Foundation should be transferred to individuals, groups of authors or organizations that have achieved great achievements in five fields (chemistry, physics, medicine and physiology, literature and peace). After his death in 1968, a separate prize in economics was established on the initiative of the Bank of

Sweden. Although the prize in economics, called the "A. Nobel Memorial Prize", is not paid from the funds of the Nobel Foundation, its amount and status are no different from other prizes.
According to the Statutes of the Nobel Foundation, the prizes in chemistry and physics are awarded by the Royal Swedish Academy of Sciences, Carolina Medical-Surgical Institute of Medicine and Physiology of Stockholm, the Swedish Academy of Literature and the special committee of the Norwegian Parliament for the protection of peace.
The Swedish Academy, which has the final say in choosing the laureate in literature, was founded in 1786 by Gustav III. Since its establishment, the Academy, which operates under the motto "Talent and Taste", is often unofficially called the Swedish Academy of Literature, since it specializes in literature and language studies. Since 1901, in accordance with the will of Alfred Nobel and the statutes of the Nobel Foundation, the list of laureates in literature has been determined by this institution.
In ANAS, which has a special position in the implementation of state policy in the field of science, various meetings and events were held with Nobel laureates. In the article, the activity of the Academy on the subject of the Nobel Prize is widely covered.
**Keywords:** Nobel Prize, literature, laureates, Muslim laureates, Nobel speech, activity of ANAS

**Article history:** received – 04.12.2024; accepted − 16.12.2024

## Giriş / *Introduction*

Ədəbiyyat üzrə Nobel mükafatına laureatların namizədliyi yalnız – İsveç Akademiyasının, yaxud başqa ölkələrin elmlər akademiyalarının üzvləri, dil və ədəbiyyat üzrə universitet professorları, əvvəlki illərdə ədəbiyyat üzrə Nobel mükafatı almış yazıçılar, müxtəlif ölkələrin ədəbi yaradıcılıq təşkilatlarının rəhbərləri və b. tərəfindən təqdim edilə bilər (təşkilatların namizəd irəli sürmək kimi bir hüququ yoxdur). Namizədlərin sənədləri hər il fevralın 1-dək qəbul edilir. Laureatların adları oktyabrın 21-dən – Alfred Nobelin doğum günündən başlayaraq bir həftə ərzində elan olunur, dekabrın 10-u, Alfred Nobelin vəfatı günündə isə İsveç kralının iştirakı ilə təqdimetmə mərasimi keçirilir.

Laureatlar təqdimetmə mərasimində, yaxud təqdimatdan ötən 6 ay müddətində Stokholmda "Nobel nitqi" ilə çıxış edirlər [3, s.8-9].

## Əsas hissə / *Main Part*

Alfred Nobel gənclik illərində bədii yaradıcılıqla məşğul olmuş, şeir, roman və pyes yazaraq nəşr etdirmişdir. Sonrakı illərdə mühəndis, alim-ixtiraçı və sənayeçi kimi tanınan alim ömrünün son illərində bədii yaradıcılığa yenidən meyil etsə də, əsərlərini çap etdirməmişdir.

1901-ci ildə Nobel mükafatının ilk dəfə verilməsi XX əsrin mühüm hadisələrindən biri hesab edilə bilər. Həmin il bütün dünya ədəbiyyat üzrə ilk mükafatın böyük rus yazıçısı Lev Tolstoya veriləcəyini gözləyərkən, Nobel Komitəsi fransız şairi Sülli Prüdomun adını təsdiq etmişdir. İlk laureatın adı elan edildikdən sonra İsçevin 42 nəfər nüfuzlu mədəniyyət xadimi Lev Tolstoya müraciət edərək Akademiyanın seçiminə görə ondan üzr istəmişlər. Lakin Lev Tolstoy cavab məktubunda bildirmişdir ki, Nobel mükafatının ona verilməməsinə sevinir, çünki pulu şərin təzahürü hesab edən, əsərlərinə görə qonorar belə almayan Tolstoy hər hansı bir mükafatı qəbul edə bilməzdi və mükafatdan imtina etməklə həm özünü, həmdə Akademiyanı çıxılmaz vəziyyətdə qoymuş olardı [3, s.12-13].

Ədəbiyyat üzrə Nobel mükafatını almış fransız şairi Sülli Prüdom (Rene Fransua Sülli Prüdom) 1839-1897-ci illərdə Parisdə yaşamışdır. "Beytlər və şeirlər" adlı ilk şeir kitabını 1865-ci ildə çap etdirmiş, "Sınaq" (1866), "İtalyan rəsmləri" (1868), "Tənhalıq" (1869) kitabları ilə oxuculara özünü tanıtmışdır.

"Gərəksiz zəriflik" və "Xoşbəxtlik" (1888) adlı əsərlərində xeyirlə şərin, sevgi ilə nifrətin əbədi mübarizəsini ifadə etmişdir. Poeziya nəzəriyyəsi ilə bağlı yazdığı "Şeir sənəti haqqında düşünərkən" (1892) və "Şairlərə vəsiyyət" (1900) kitablarında klassik şeir üslubunu müdafiə edərək, məntiqsiz novatorluğa qarşı çıxmışdır. Ömrünün son illərində fəlsəfəyə meyil salan şair, "Paskalın gerçək dili" traktatını (1905), "Son məqsəd problemləri" və "Azad seçki psixologiyası" (1906) əsərlərini yazmışdır.

Sülli-Prüdom "ədəbiyyata ləyaqətlə xidmət etdiyinə, xüsusən də yüksək idealizminə, bədii kamilliyinə, həmçinin, qeyri-adi istedad və ruh sahibi olduğuna görə" ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür. Alfred Nobelin vəsiyyətnaməsinə və Nobel Fondunun əsasnaməsinə görə, ədəbiyyat üzrə mükafatlar "idealist tərzdə yazılmış əsərlərə görə" verilir. Mükafat təqdim edilərkən qeyd olunmuşdur ki, Sülli-Prüdom əksər yazıçılardan fərqli olaraq, məhz Alfred Nobelin "ədəbiyyatda idealist ənənələr" adlandırdığı fikirləri qələmə almışdır [2, s.5-6]. Belə yanaşma tərzi Lev Tolstoy, sonrakı illərdə Ceyms Coys, Anton Çexov, Marsel Prust, Henrik İbsen və Henri Ceyms kimi yazıçıların bu mükafata layiq görülmədiklərinin səbəbi kimi də göstərilir.

Fransız ədəbiyyatında populyar olmayan şairin adı vətənində daha çox Nobel mükafatçısı kimi xatırlanır. Azərbaycan dilinə isə onun bir neçə şeiri tərcümə edilmiş, həyatı və yaradıcılığı haqqında dövri mətbuatda yalnız kiçik yazılar yer almışdır.

1901-2024-cü illər arasında 117 dəfə təqdim edilən ədəbiyyat üzrə Nobel mükafatının 121 nəfər qalibi olmuşdur (onlardan 103-ü kişi, 18 nəfəri isə qadındır). Ədəbiyyat sahəsində Nobel mükafatları yazıçıya adətən bütün yaradıcılığına, ədəbiyyat tarixində görkəmli xidmətlərinə, bəzi hallarda isə ayrıca bir əsərinə görə verilir. Təqdim olunan əsərlərin ilk növbədə İsveç dilinə tərcüməsi nəzərdən keçirilir. Bununla belə, Norveç, Danimarka, alman, ingilis, fransız, ispan dillərinə tərcümə variantlarına da nəzər salınır [3, s.11-12]. Nobelçilərin 29-u ingilis, 16-sı fransız, 14-ü alman dilində əsərlərini yazmaqla üstünlük təşkil edirlər.

Bu günədək ədəbiyyat sahəsində ən çox Nobel mükafatı alan ölkələrin statistik göstəricisi belədir:

Fransa – 15
ABŞ – 13
Böyük Britaniya – 12
Almaniya və Polşa – 8
İtaliya və İsveç – 6
İspaniya – 5
Rusiya, İsveçrə və Norveç – 4
İrlandiya və Yaponiya – 3
Çin, CAR, Danimarka, Çili, Yunanıstan və Avstriya - 2
Belçika, Hindistan, Peru, Misir, Finlandiya, İslandiya, Bosniya, İsrail, Qvatemala, Türkiyə, Avstraliya, Kolumbiya, İngiltərə, Bolqarıstan, Meksika, Sent-Lüsiya, Çexiya, Nigeriya, Misir, Meksika, Portuqaliya, Macarıstan, Kanada, Belarusiya, Peru - 1.

1914, 1918, 1935, 1940, 1941, 1942, 1943 və 2018-ci illərdə mükafatın digər sahələr üzrə laureatları olsa da, bir sıra obyektiv və subyektiv səbəblərdən ədəbiyyat sahəsində Nobel mükafatı heç kimə təqdim edilməmişdir.

1904, 1917, 1966 və 1974-cü illərdə ədəbiyyat üzrə Nobel mükafatının hər il üçün iki nəfər qalibi olmuşdur. 1904-cü ildə Frederik Mistral (Fransa) "poetik əsərlərindəki yeniliyə və orijinallığa, yaradıcılığında şifahi xalq ruhunu düzgün əks etdirdiyinə" və Xose Eçeqaray-i Eysagirre (İspaniya) "ənənəvi ispan dramaturgiyasına çoxsaylı xidmətlərinə" görə ədəbiyyat sahəsində mükafatın qalibləri olmuşlar. 1917-ci ildə roman janrında yazan iki danimarkalı yazıçı – Karl Adolf Gellerup "rəngarəng poetik yaradıcılığına, yüksək ideyalarına" və Henrik Pontopidan "çağdaş Danimarka həyatının ədalətli təsvirinə" görə mükafatı qazanmışlar. 1966-cı ildə yəhudi əsilli roman yazıçısı Şmuel Aqnon "yəhudi xalq motivlərini böyük ustalıqla və orijinal təqdim etmək bacarığına", isveçrəli alman şairə Nelli Zaks isə "yəhudi xalqının taleyini lirik və dramatik boyalarla təsvir etdiyinə" görə mükafata layiq görülmüşlər. 1974-cü ildə isveçli yazıçı və publisist Eyvind Yunson "azadlığı əks etdirən və zaman-məkan anlayışını dəf edən yaradıcılığına", həmyerlisi şair və yazıçı Harri Martinson isə "yaradıcılığında şeh damlasından tutmuş kosmosa qədər hər şeyi mükəmməl

təsvir edə bildiyinə" görə ədəbiyyat üzrə Nobel mükafatının qalibləri olmuşlar.

1901-ci ildən bu günədək bütün sahələr üzrə Nobel mükafatının cəmi 13 müsəlman qalibi olmuşdur. Onlardan 2-si kimya, 9-u sülh, 2-si ədəbiyyat nominasiyası üzrə qalib seçilmişlər (tibb və iqtisadiyyat üzrə müsəlman ölkələrindən mükafat qazanan olmamışdır).

Ədəbiyyat üzrə Nobel mükafatının ilk müsəlman laureatı misirli yazıçı, ssenarist və dramaturq Nəcib Məhfuzdur (1911-2006). Qahirə şəhərində anadan olan yazıçının ilk əsərlərinin qayəsini uşaqlıq və gənclik xatirələrinin yaddaşda qalmış obrazları təşkil edir. Onun "Midaqq döngəsi", "Qahirə trilogiyası", "Fəvvarə və məzar" romanları bu qəbildəndir. 1938-ci ildə "Sərsəmlik pıçıltıları" adlı ilk kitabını nəşr etdirmişdir. Daha sonrakı illərdə yazdığı "Xeopsun müdrikliyi", Rodopis Nubiyskaya", "Fiv mübarizəsi" adlı tarixi romanları oxucular tərəfindən maraqla qarşılanmışdır. 1960-cı illərdən sonra nəşr etdirdiyi "Oğru və itlər", "Allanın dünyası", "Payız və bildirçin", "Yol", "Dilənçi", "Nildə boşboğazlıq", "Bal ayı" və başqa hekayələri diqqəti cəlb etmişdir.

Yazıçının əsərləri 1950-ci illərdə ingilis dilinə tərcümə edildikdən sonra Avropada məşhurlaşmışdır. XX əsr ərəb nəsrinin formalaşmasında böyük xidmətləri olan Nəcib Məhfuz 1988-ci ildə ədəbiyyat sahəsində Nobel mükafatına "yaratdığı ərəb hekayələrində bütün insanlıq üçün böyük əhəmiyyət kəsb edən yüksək romantizm və rəngarəng bədii çalarlara görə" layiq görülmüşdür.

2006-cı ildə isə ədəbiyyat üzrə Nobel mükafatı türkiyəli yazıçı Orxan Pamuka verilmişdir. 12 oktyabr 2006-cı il tarixində İsveç Kral Akademiyası tərəfindən Orxan Pamukun Nobelə layiq görüldüyü rəsmən belə açıqlanmışdır: "Ədəbiyyat üzrə Nobel mükafatı şəhərin melanxolik ruhunu axtararkən, mədəniyyətlərin bir-birinə toqquşmasını və çulğalaşmasını ifadə etmək üçün yeni simvollar tapdığına görə Orxan Pamuka verilir". İsveç Akademiyasının daimi katibi, professor Horas Engdahl Pamukun "Şərq və Qərb mədəniyyəti bağları sahəsində çağdaş romanın köklərini genişləndirdiyi və romanı qərblilərin əlindən alaraq indiyə qədər gördüyümüz romandan tamamən başqa bir şeyə dönüşdürdüyü üçün" bu mükafata layiq görüldüyünü qeyd etmiş, onun İstanbulla münasibətini Dostoyevskinin, Prustun, Coysun öz şəhərlərinə olan bağlılığına bənzətmişdir. Nobel mükafatını alanadək "Cövdət bəy və oğulları" (1982), "Səssiz ev" (1983), "Bəyaz qala" (1985), "Qara kitab" (1990), "Yeni həyat" (1994), "Mənim adım qırmızı" (1998), "Qar" (2002), "İstanbul: xatirələr və şəhər" (2003) adlı romanların müəllifi olan yazıçının "Gizli üz" adlı ssenarisi əsasında (1992) film çəkilmiş, "Pəncərədən baxmaq" (1999) adlı hekayəsi maraqla qarşılanmışdır. Sonrakı illərdə "Məsumiyyət muzeyi" (2008), "Beynimdəki qəribəlik" (2014), "Qırmızı saçlı qadın" (2016), "Vəba gecələri" (2022) romanları nəşr edilmişdir.

Maraqlıdır ki, Orxan Pamukun Nobeli qazandıqdan sonrakı illərdə yazdığı əsərlər dilinin səlisliyi, izahatverici cümlələri, eləcə də sadə süjet xətti ilə bütün oxucu kütləsinə xitab edərək, daha çox sevilir. Onun əsərlərinə fərqli üslubda yanaşmasını nəzərdən qaçırmayan Amerikanın nüfuzlu onlayn saylı "Daily Beast"də yayımlanan "Nobel lənəti Orxan Pamuku öldürdümü" adlı məqalədə "Orxan Pamuk nostalgiyaya meyil salıb, eşq romanları yazır" sözləri yer almışdır. Buna qarşılıq olaraq "İndependent" qəzetində isə yazıçının "ən gözəl əsərlərini Nobeldən sonra yazdığı" qeyd olunmuşdur.

Nobel Komitəsinin əsasnaməsinə görə, laureatlar təqdimetmə mərasimində, yaxud təqdimatdan ötən altı ay müddətində Stokholmda Nobel nitqi ilə çıxış etməlidirlər. "Nobel nitqi" laureatın yaradıcılıq yolu, elmi, ədəbi, ictimaiyyət fəaliyyəti, mükafata layiq görülmüş əsərin məzmunu haqqında informasiyaları, onun öz fəaliyyət sahəsinin durumu, perspektivləri haqqında mülahizələrini, müasir dünya sivilizasiyalarının gələcək tərəqqi yolu, inkişaf meyilləri haqqında ictimai, elmi və fəlsəfi ideyalarını əhatə etdiyindən [3, s.9], bir növ namizədin cəmiyyətə və ictimaiyyətə özünü daha yaxından təqdimetmə funksiyasını da daşıyır. Bəzi laureatların Nobel nitqləri isə illər keçsə də unudulmamışdır. Məsələn, 1965-ci ildə "Sakit Don" əsərində "Rusiya tarixi üçün mühüm dövrdə Don kazakları haqqında eposun mükəmməlliyinə və bədii təsir gücünə görə" ədəbiyyat sahəsində mükafata layiq görülmüş

rus yazıçısı Mixaik Şoloxovun Nobel nitqi böyük marağa səbəb olmuşdur. Yaşadığı dövrdə "roman janrının vaxtının keçdiyini, onun problemləri həll etmək imkanlarının azaldığını" söyləyənlərə meydan oxuyan yazıçı demişdir: "Son zamanlar roman janrının köhnəldiyi, müasir həyatın tələblərinə uyğun gəlmədiyi barədə çox oxumuş, çox çıxışlar eşitmişəm və açığını deyim ki, bu, məni xeyli təəccübləndirib. Bununla belə, razılaşaq ki, məhz roman həqiqət dünyasını tam ələ almağa, bu dünyaya, onun qaynar problemlərinə özünün, həmfikirlərinin münasibətini təsvirlərdə ifadə etməyə imkan verir.... Belə deyək, roman yazıçının özünün balaca mənini dünyanın mərkəzi kimi təqdim etmək cəhdinə deyil, bizi əhatə edən nəhəng dünyanın dərin dərkinə yönləndirir. Təbiət etibarilə bu janr realist-sənətkar üçün ən geniş mənzərəni təqdim edir. İncəsənətdəki yeni cərəyanların bir çoxu realizm dövrünün, guya, artıq geridə qaldığını deyərək onu inkar edir. Geridəqalmışlıqla ittiham olunmaqdan qorxmadan bəyan edirəm ki, realist sənətin tərəfdarı kimi bunun tamamilə əksini düşünürəm" [6].

Orxan Pamukun da İsveç Kral Akademiyasındakı "Atamın çemodanı" adlı Nobel nitqi fərqliliyi ilə diqqəti cəlb etmişdir. Öz çıxışını türk dilində təqdim edən yazıçı sənətinə və ədəbiyyata bağlılığını belə ifadə etmişdir: "Mənim üçün yazıçılığın sirri, haradan gəldiyi bəlli olmayan ilhamda deyil, inad və səbrdədir. Türkcədəki o gözəl deyiş, "iynəylə gor qazmaq" ifadəsi mənə sanki yazıçılar üçün söylənmiş kimi görünür. Qədim nağıllardakı, eşqi üçün dağları çapan Fərhadın səbrini sevirəm və anlayıram... Hər kəsin bildiyi, amma bildiyini bilmədiyi şeylərdən danışmaqdır yazıçılıq. Bu bilginin kəşfi və inkişaf etdirilib paylaşılması oxucuya çox tanıdığı bir dünyada heyrət edərək dolaşmağın zövqünü yaşadır... Ədəbiyyatın insan oğlunun özünü anlamaq üçün yaratdığı ən dəyərli mal, qazanc olduğuna inanıram. İnsan topluluqları, qəbilələr, millətlər ədəbiyyatlarına əhəmiyyət verdikləri, yazıçılarına qulaq asdıqları ölçüdə ağıllanır, zənginləşir və yüksəlirlər" və s. [5, s.4-16]

Ədəbiyyat üzrə Nobel mükafatı almış yazıçıların ən uzunömürlüsü Bertran Rasseldir (1872-1970). İngilis filosofu, məntiqşünas, riyaziyyatçı və ictimai-siyasi xadim, ensiklopedist kimi tanınan Bertran Rassel ədəbiyyat üzrə Nobel mükafatına 1950-ci ildə layiq görülmüşdür. Ona mükafat "rasionalizm və humanizmin ən dəyərli nümayəndələrindən biri kimi azad söz və azad fikir uğrunda qərbdə mübarizə aparan qorxusuz döyüşçü olduğuna görə" təqdim edilmişdir. 1872-ci ildə anadan olan alim 1970-ci ildə dünyasını dəyişəndə 98 yaşında idi. Nobel mükafatına layiq görüldüyündə isə 78 yaşı vardı.

Ədəbiyyat üzrə Nobel mükafatı almış yazıçıların ən qısa ömürlüsü Albert Kamyu (1913-1960) olmuşdur. Fransız yazıçı və filosof, ekzistensializm cərəyanının nümayəndəsi, sağlığında "Qərbin vicdanı" adlandırılan Albert Kamyu 1913-cü ildə Əlcəzairdə doğulmuşdur. 1921-1937-ci illərdə Əlcəzair Universitetində fəlsəfə təhsili aldığı illərdə Fyodor Dostoyevski, Fridrix Nitsşe kimi sənətkarların yaradıcılığından faydalanmış, "Vəba" (1947), "İlk insan" (1994) romanlarını, "Yad" (1942), "Yıxılmaq" (1957), "Xoşbəxt ölüm" (1971) povestlərini, onlarla hekayə, dram əsərləri, esse və ona dünya şöhrəti gətirən fəlsəfi əsərlər yazıb nəşr etdirmişdir.

Alber Kamyu 1957-ci ildə "insan vicdanının əhəmiyyətini işıqlandıran, ədəbiyyat sahəsinə vermiş olduğu böyük töhfələrə görə" ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldüyündə 44 yaşında idi. Mükafatı aldıqdan iki il sonra, 1960-cı ildə 46 yaşında avtomobil qəzasında həlak olmuşdur.

Ədəbiyyat sahəsində Nobel mükafatının ən gənc qalibi Ridyad Kiplinqdir. O, 1907-ci ildə mükafata layiq görüldüyündə 41 yaşında idi. Bu fakt, indiyədək təkrarlanmayan bir rekord sayılır. Tədqiqatçıların fikrincə, Nobel mükafatı Kiplinq üçün ruhlandırıcı stimula çevrilməmişdi. Əksinə, yaradıcılığında müəyyən tənəzzül ünsürləri meydana çıxmış, Nobel laureatı kimi yazıb-yaratdığı otuz ilə yaxın müddət ərzində ortaya sanballı əsər qoya bilməmişdi. Həyatının son illərində və ölümündən sonra isə onun yaradıcılığına maraq, ümumiyyətlə, azalmışdı. Bu həm Kiplinqin müstəmləkəçilik və böyük dövlətçiliyə əsaslanan siyasi baxışları, həm də getdikcə mücərrədləşən çağdaş ədəbiyyat fonunda onun əsərlərinin sadəliyi, hətta bəsitliyi ilə izah

edilir. Kiplinq mükafatı "Dünyaca məşhur müəllifin yaradıcılığını xarakterizə edən müşahidə gücü, təxəyyülün orijinallığı, ideyalarının bitkinliyi və diqqətəlayiq təhkiyə qabiliyyətinə görə" almışdır.

Ədəbiyyat üzrə Nobeli qazanan ən yaşlı yazıçı Doris Lessinq (1919-2013) 2007-ci ildə bu mükafatı aldığında 88 yaşı vardı. Mükafat yazıçıya "Skeptisizm, ehtiras və uzaqgörən qadın təcrübəsini əsərlərində kənar sivilizasiyaların timsalında təcrübədən keçirdiyinə və peşəkarlıqla təsvir etdiyinə görə" verilmişdir. Doris Lessinq, həm də ədəbiyyat üzrə Nobel mükafatı qazanmış 11-ci qadındır. O, 1919-cu ildə İranın Kirmanşah şəhərində doğulmuşdur. Ailəsi 1925-ci ildə Afrika qitəsindəki ingilis müstəmləkəsinə – Cənubi Rodeziyaya (indiki Zimbabve) köçmüşdü. Sonralar öz həyat yolunu müəyyən edən yazıçı 1949-cu ildə Londona köçmüş, 2013-cü ildə Böyük Britaniyada dünyasını dəyişmişdir. Yaxın dostu, pakistanlı teoloq İdris Şahın yardımı ilə Doris Lessinq sufi islamın doktrinaları ilə dərindən tanış olmuşdu. Çox güman ki, sufiliyə ciddi marağı onun uşaqlıq illərini İranda keçirməsi ilə müəyyən dərəcədə əlaqəlidir. İngilis yazıçısının islam və Şərq motivləri ilə zəngin "Şikəstə" (1979) romanını da həmin təsirin illər keçəndən sonra meydana çıxan əks-sədası kimi qəbul etmək mümkündür.

1901-2024-cü illərdə ədəbiyyat üzrə Nobel mükafatının 16 qadın laureatı olmuşdur.

Ədəbiyyat üzrə Nobel mükafatı alan ilk qadın yazıçı isveçli Selma Lagerlöfdür. 1909-cu ildə mükafatı qazanan Selma Lagerlöf həm də İsveçin ilk qadın yazıçısıdır. Bu mükafata "onun yazılarını səciyyələndirən yüksək idealizmə, canlı təxəyyülə və mənəvi qavrayışa təqdir olaraq" layiq görülmüşdür.

Ədəbiyyat üzrə Nobel mükafatının ən son qadın laureatı 2022-ci ildə Anni Erno olmuşdur. Anni Erno həm də bu mükafatı qazanmış ilk fransız qadın yazıçıdır. Anni Erno mükafata "xatirələrinin mənşəyini, yadlaşma və kollektiv məhdudiyyətlərini aşkara çıxarmaqda göstərdiyi cəsarət və klinik dəqiqliyə görə" layiq görülmüşdür. Fransa Prezidenti Emmanuel Makron Anni Ernonu təbrik edərkən onu "qadınların və unudulmuşların azadlıq rəmzi" adlandırmışdır.

Nobel Komitəsinin əsasnaməsində ədəbiyyat üzrə mükafatdan bəhs olunarkən "ədəbiyyat" anlayışı altında yalnız bədii yaradıcılıq nümunələri deyil, forma və üslubuna görə ədəbi dəyərə malik olan digər əsərlər də nəzərdə tutulur. Məhz buna görədir ki, ədəbiyyat üzrə Nobel mükafatçılarının sırasında böyük alman tarixçisi Teodor Mommzen (1902), dünyaşöhrətli fransız filosofu Anri Berqson, görkəmli ingilis siyasətçisi Uinston Çörçil kimi müəlliflərin də adlarına rast gəlmək mümkündür [3, s.10].

Qeyd edək ki, Vinston Çörçill ədəbiyyat üzrə Nobel mükafatı alan ilk və yeganə hökumət başçısıdır. 1953-cü ildə, Vinston Çörçill sonuncu dəfə Böyük Britaniyanın baş naziri olduğu dövrdə İsveç Akademiyası onu "tarixi və bioqrafik xarakterli əsərlərinin böyük ustalığına, habelə ən yüksək insani dəyərlərin müdafiəsinə yönəlmiş parlaq natiqlik məharətinə görə" yekdilliklə Nobel mükafatına layiq bilmişdi.

Bununla belə, tarixdə ədəbiyyat üzrə Nobel mükafatından etiraz edənlər də olmuşdur. 1958-ci ildə bu mükafata layiq görülmüş Rusiyalı Boris Pasternak, SSRİ hökumətinin təzyiqləri altında mükafatdan imtina etməyə məcbur olmuşdur. 1964-cü ildə Jan Pol Sartr, keçmişdə bütün rəsmi mükafatlardan imtina etdiyi kimi bu mükafatdan da imtina etmişdir. Bütün bunlara baxmayaraq, Nobel komitəsi mükafatdan imtinanı qəbul etməyərək Pasternak və Jan Pol Sartrı Nobel laureatları siyahısına daxil etmişdir [7].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bir sıra Nobel mükafatçıları ölkəmizdə keçirilən yüksək səviyyəli beynəlxalq tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər etmişlər. Onlardan biri də 2016-cı ildə V Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində paytaxtımıza qonaq gələn afrika əsilli nigeriyalı yazıçı Vole Şoinkadır.

2016-cı il sentyabrın 28-də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin dəvəti ilə Vole Şoinka ilə ədəbiyyatşünaslar arasında görüş keçirilmişdir. Tədbiri giriş sözü ilə açan akademik İsa Həbibbəyli Vole Şoinkanın mübarizələrlə keçən həyatı və yaradıcılığı barədə ətraflı mə-

lumat vermiş, onu təkcə ilk Nobel mükafatı alan Afrika yazıçısı deyil, eyni zamanda ingilis dilində yaranan yeni ədəbiyyatın görkəmli nümayəndəsi kimi təqdim etmişdir. Əsərlərində Afrikada milli azadlıq hərəkatının dolğun ifadə olunduğunu xüsusi vurğulayan alim demişdir: "1986-cı ildə Vole Şoinkaya "böyük mədəni perspektivə və poetikliyə malik milli teatrın yaradılmasına görə" Nobel mükafatı verilib. O, öz Nobel mübarizəsini Cənubi Afrika lideri Nelson Mandelaya həsr edib. Yazıçının yaradıcılığında əsasən insan, onun mənəviyyatı, mübarizəsi, iztirabları geniş şəkildə əks olunur. Poeziya, nəsr və dramaturgiya ilə ardıcıl məşğul olan yazıçının həbsxanada olarkən qələmə aldığı şeirləri bütün Afrikada məşhurdur" [8].

Qeyd edək ki, Vole Şoinkanın "Təfsirçilər" əsəri Nəriman Əbdürrəhman tərəfindən Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur.

2023-cü ilin 17 noyabrında isə AMEA Rəyasət Heyətinin təşkilatçılığı ilə "Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Nobellər və Nobel mükafatı: dünya təcrübəsi, Azərbaycan reallıqları və qarşıda duran vəzifələr" mövzusunda giriş nitqi ilə çıxış edərək qeyd etmişdir ki, "Nobel mükafatı artıq bir əsrdən artıq müddətdir dünyanın ən nüfuzlu mükafatı ünvanını qoruyub saxlayır. Elmi konfransın keçirilməsində əsas məqsəd Nobel mükafatı ilə bağlı dünya təcrübəsini, Nobel mükafatına aparan yolun çətinliklərini, maneələrini, psixoloji eyforiyasını aydınlaşdırmaq, uğurlarını, çağırışlarını gənc alimlərə, yeni nəsillərə çatdırmaq, alimlərimizi, yazıçılarımızı Nobel mükafatının təqdim etdiyi elmi istiqamətlərə doğru yönləndirməkdən ibarətdir". AMEA rəhbəri Nobel mükafatına namizəd kimi qeydə alınan azərbaycanlı alimlər haqqında geniş məlumat təqdim edərək bildirmişdir ki, 1940-cı ildə tibb elmləri doktoru Fatma Rəhimova Vəlixanın namizədliyi Nobel Komitəsində qeydə alınsa da, İkinci Dünya müharibəsinin başlamasına görə mükafatlandırma həmin illərdə dayandırılmışdır. Daha sonra yüksək oktanlı benzinin kəşfinə görə, akademik Yusif Məmmədəliyevin namizədliyi irəli sürülsə də, Sovetlər İttifaqının rəhbərliyindəki Anastas Mikoyan və marşal Baqramyan kimi məkrli ermənilərin əsassız iddialarından sonra bolşevik rəsmiləri bu təqdimata mane olmuşdur. Həmçinin akademik Mustafa Topçubaşovun da qəlpələri rentgen etmədən tapan və səhra xəstəxanalarında əməliyyatlarda yüksək effektivlik alınmasına imkan verən nailiyyətlərinə görə Nobel mükafatına namizədliyinin qeydə alındığı barədə məlumatlar vardır. Müasir dövrdə isə 2012-ci ildə Xalq yazıçısı Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəri Nobel mükafatına təqdim olunaraq qeydiyyatdan keçmişdir. Bir sıra başqa təşəbbüslər də olmuşdur. Ümumilikdə Nobel mükafatının təqdim olunmağa başladığı 1901-ci ildən indiyə kimi 10 nəfərə yaxın namizədimiz bu mükafata iddia edib". Tədbirdə Xalq yazıçısı Çingiz Abdullayev çıxış etmiş, "Nobel qardaşlarının Azərbaycanda fəaliyyəti və neft gəlirləri", "Nobel mükafatı: qaydalar və fərqli yanaşmalar", "Nobel mükafatı: kuryoz-odioz hadisələr və müasir yanaşmalar", "Nobel mükafatı: gerçəkliklər və fərqli baxışlar" mövzusunda maraqlı məruzələr dinlənilmişdir [4].

Ölkəmizdə Nobel mükafatına təqdim olunan azərbaycanlılardan söz düşərkən, dünya şöhrətli fizik, yəhudi əsilli Lev Landaunun adını xatırlamaq yerinə düşərdi. Landau 1908-ci ildə Bakının Balaxanı qəsəbəsində anadan olmuş, Bakı İqtisadiyyat Texnikumunu, daha sonra Bakı Dövlət Universitetini bitirmişdir. O, 1962-ci ildə "İfrat axıcılığın nəzəriyyəsinə görə" fizika üzrə Nobel mükafatına layiq görüldüyündə 54 yaşında idi. 1968-ci ildə Moskva şəhərində vəfat edən Lev Landaunun adı "bakılı nobelçi" kimi xatırlanır.

Azərbaycan Respublikasına səfər edən nobelistlərdən biri də türkiyəli tədqiqatçı Əziz Səncərdir. Azərbaycan sevdalısı, 2015-ci ildə kimya sahəsində Nobel mükafatını qazanmış dünya şöhrətli alim, 2020-ci ildə II Qarabağ müharibəsini yaxından izləmiş, Ermənilərin Gəncəyə atdığı raket nəticəsində hər iki valideynini itirən Xədicəyə yardım edərək, onun təhsili üçün maliyyə vəsaiti ayırmışdır. 2021-ci ildə Şuşaya səfərində "Özümə söz vermişdim ki, Şuşa azad edilsə, orada məsciddə namaz qılacam ki, ölsəm gözüm arxada qalmasın. Allaha çox şükür ki, arzumu yerinə yetirdim" deyərək xalqımızın sevgisini qazan-

mışdır. 2022-ci ildə Bakıda keçirilən TEKNOFEST Azərbaycan festivalında da iştirak edən Əziz Səncər gənclərə müraciətində "Mən məmləkətimiz deyəndə həm Türkiyə, həm də Azərbaycanı nəzərdə tuturam" sözləri ilə "bir millət – iki dövlət" ifadəsini bir daha vurğulamışdır.

Əziz Səncər 2021-ci il – "Nizami İli"ndə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı"na layiq görülmüş, 2023-cü ildə keçirilən AMEA-nın Ümumi yığıncağında Akademiyanın Fəxri üzvü seçilmişdir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin dəvəti ilə xalqımızın böyük dostu, Nobel mükafatı laureatı Əziz Sancar 2024-cü ilin 30 may – 6 iyun tarixlərində ölkəmizdə səfərdə olmuşdur. O, AMEA rəhbərliyi ilə birgə Naxçıvan şəhərinə səfər etmiş, AMEA-nın Naxçıvan Bölməsi ilə tanış olmuş, gənc nəslin nümayəndələrinin iştirakı ilə Naxçıvan Dövlət Universitetində geniş tərkibdə görüş keçirilmişdir. Onun səfəri münasibətilə 2024-cü il iyunun 3-də AMEA-nın Ümumi Yığıncağının xüsusi iclası keçirilmiş, alimin "Türk dünyası elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda məruzəsi dinlənilmişdir. AMEA-TÜBİTAK Koordinasiya Mərkəzinin nəzdində "Əziz Sancar şərəf otağı"nın açılışı olmuş, alim mərkəzin xatirə dəftərinə ürək sözlərini yazmışdır" [1].

## Nəticə / *Conclusion*

Dünyada elmi fəaliyyətin ən mühüm stimullaşdırıcı amillərindən biri də Nobel mükafatıdır. Bu prestijli mükafat onu alan şəxsin elmi nailiyyətinə, fəaliyyətinə verilən yüksək qiymət olmaqla yanaşı, həmin şəxsin təmsil etdiyi ölkənin və xalqın da intellektual potensialına verilən dəyərdir. Bütün bunlar onu deməyə əsas verir ki, Nobel mükafatına layiq görülən şəxslər, onların elmi kəşfləri, Nobel nitqləri və s. ilə bağlı məlumatların təbliği və populyarlaşdırılması cəmiyyətdə elmi fəaliyyətin nüfuzunun yüksəldilməsi, elmdə yeni ixtira və kəşflərə marağın artırılması, xüsusən də gənclərdə elmə böyük marağın yaradılması baxımından böyük əhəmiyyətə malikdir.

## Ədəbiyyat / *References*


1. AMEA-nın Ümumi yığıncağının Nobel mükafatı laureatı Əziz Sancara həsr olunmuş xüsusi iclası. Bakı, "Elm" qəzeti, № 38 (1392), 24 noyabr 2024
2. Ədəbiyyat üzrə Nobel mükafatçıları 1901-2017-ci illər (Antologiya). Əyyub Qiyasın tərcümə və təqdimatında. Bakı, Elm və təhsil, 2019, 696 s.
3. İlham Abbas. Ədəbiyyat üzrə Nobel mükafatçıları. Bakı, Mücrü, 2023, 416 s.
4. Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar. Bakı, "Elm" qəzeti, № 20 (1417), 7 iyun 2024
5. Orxan Pamuk. Gizli üz. Kinossenari və Nobel nitqi. Bakı, Mütərcim, 2009, 68 s.
6. https://modern.az/news/95193/ Mixail Şoloxov: təbiətə və cəmiyyətə dərin bələd olan yazıçı - II yazı
7. https://az.wikipedia.org/wiki/Ədəbiyyat_üzrə_Nobel_mükafatı_laureatlarının_siyahısı
8. https://science.gov.az/az/news/open/4249 Ədəbiyyat İnstitutunda Nobel mükafatçısı ilə görüş keçirildi.

**Нобелевские лауреаты по литературе: вечные и литературные звезды мировой олимпийской памяти**

**Арзу Мамедханлы**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: arzu2572@rambler.ru

**Резюме**. Нобелевская премия была учреждена 27 ноября 1895 года по завещанию всемирно известного химика, инженера и изобретателя Альфреда Бернара Нобеля. По его завещанию, средства, собранные за счет ежегодных процентов Нобелевского фонда, должны быть переданы отдельным лицам, группам авторов или организациям, добившимся больших достижений в пяти областях (химия, физика, медицина и физиология, литература и мир). После его смерти в 1968 году по инициативе Банка Швеции была учреждена отдельная премия по экономике. Хотя премия по экономике под названием «Премия памяти А. Нобеля» не выплачивается из средств Нобелевского фонда, её размер и статус не отличаются от других премий.

Согласно Уставу Нобелевского фонда, премии по химии и физике присуждаются Шведской королевской академией наук, Стокгольмским медико-хирургическим институтом медицины и физиологии Каролины, Шведской академией литературы и специальным комитетом норвежского парламента по защите мира.

Шведская академия, имеющая решающее слово при выборе лауреата по литературе, была основана в 1786 году Густавом III. С момента своего создания Академию, действующую под девизом «Талант и вкус», часто неофициально называют Шведской литературной академией, поскольку она специализируется на литературе и языковых исследованиях. С 1901 года согласно завещанию Альфреда Нобеля и уставу Нобелевского фонда список лауреатов по литературе определялся этим учреждением.

В НАНА, занимающей особое положение в реализации государственной политики в сфере науки, были проведены различные встречи и мероприятия с нобелевскими лауреатами. В статье широко освещена деятельность Академии по теме Нобелевской премии.

**Ключевые слова:** Нобелевская премия, литература, лауреаты, мусульманские лауреаты, Нобелевская речь, активность НАНА